Mövzu 15. Amerika turizm regionu. Şimali Amerika dövlətlərində beynəlxalq turizmin müasir vəziyyəti.

Plan

1. Şimali Amerika turizm bölgəsinin inkişafını təmin edən amillər.
2. ABŞ-ın coğrafi mövqeyi, iqlim şəraiti, əsas turizm mərkəzləri.
3. ABŞ-ın turizm marağı yaradan obyektlərinin xarakteristikası.
4. Kanadanın coğrfi mövqeyi, iqlim şəraiti, dövlət quruluşu.
5. Kanadanın əsas turizm ehtiyatları.
6. Meksikanın coğrafi mövqeyi,relyefi,iqlim şəraiti, turist marağı yaradan abidələri.
7. Meksikanın turist marağı yaradan abidələrinin yerləşdiyi şəhərlər, turizmin iqtisadiyyatda yeri.

1. ABŞ-ın coğrafi mövqeyi, iqlim şəraiti, əsas turizm mərkəzləri.

ABŞ-ı Şimali Amerikanın mərkəzində yerləşir. O Kanada və Meksika ilə həmsərhəddir. ABŞ qərbdə Sakit okeanı, şərqdə Atlantik okeanı, Cənubda Meksika körfəzinin suları ilə əhatə olunmuşdur.

Ölkənin relyefi qərbdə dağlıq, şərqdə əsasən düzənliklərdən ibarətdir. Ölkənin qərbində dağlıq yaylalar Kordilyer dağ sistemi yerləşir. Bu ərazinin şərq hissəsi hündürlüyü 4000 m-dən yüksək olan qayalı dağlarla bitir. Ölkənin şərqində Appalaç dağları yerləşir. Şimali Amerikanın ən uca zirvəsi olan Mak-Kinli dağı (6194 m) Alyaskada yerləşir. Ölkənin ölüm dərəsi (-86 m) adlanan ərazi Kaliforniya ştatındadır.

ABŞ-ın əsas çayları Missisipi, Kolorado, Kolumbiya və Yukondur. ABŞ-ın şimal-şərqində Böyük göllər (yuxarı Miçiqan, Huron, Eri, Ontario) sistemi yerləşir. Ölkədə Yuta ştatındakı Böyük Duzlu göl də daxil olmaqla şoxlu sayda buzlaq mənşəli göllər vardır.

Ölkənin iqlimi yayda isti, qışda mülayimdir. Soyuq qarlı qış dağlıq və Şimal rayonları üçün səciyyəvidir. Cənub ştatları (Kaliforniya, Florida) daha isti bölgələrdir. Mərkəzi hissə kontinental iqlimi ilə seçilir. Yanvarın orta temperaturu – 25 dərəcədən (Alyaska), +20 dərəcəyədək (Kaliforniya) dəyişir. Ölkənin qərb shillərində iyulun orta temperaturu 14-20, şərq sahillərində isə 16-25 dərəcəyə çatır.

Nyu-Yor, Los-Anceles, Çikaqo, Hyuston, Fladelfiya ölkənin ən böyük şəhərləri, Boston, Qonolulu, Lonq-Biç, Los-Anceles, Mayami, Norfolk, Yeni Orlean, Nyu-York, Portlend, San-Fransisko, Hyuston, Filadelfiya isə ən böyük limanlarıdır.

ABŞ-ı federativ respublikadır. Ölkənin tərkibinə 50 ştat və paytaxtın yerləşdiyi Kolumbiya dairəsi daxildir. 1776-cı ildə ABŞ İngiltərədən müstəqillik qazanmışdır. Ona görə də 4 iyul Müstəqillik günü, 22 fevral ABŞ-ın ilk prezidenti Corc Vaşinqtonun doğum günü, 11 noyabr-Veteranlar günü Milli bayram kimi qeyd edilir. Dövlətin və hökumətin başçısı 4 il müddətinə seçilən prezidentdir. İcraedici hakimiyyət prezidentə və prezident administrasiyasına məxsusdur. Qanunvericilik fəaliyyətini iki palatalı parlament (Konqres) həyata keçirir. Konqres senat (Yuxarı palata) və Nümayəndələr palatasından (Aşağı palata) ibarətdir.

Səyahət və turizm ölkənin milli iqtisadiyyatına gəlir gətirən mühüm bölmələrdəndir. ABŞ-da turizm üç regionda Şimal-şərq, Florida və kaliforniya bölgələrində cəmləşmişdir.

2. ABŞ-ın turizm marağı yaradan obyektlərinin xarakteristikası.

ABŞ-ın Şimal-şərq regionu rəngarəng turizm ehtiyatları ilə məşhurdur. Buranın iqlimi yayda dəniz sahili istirahətin, qışda isə idman qış idman növlərinin təşkili üçün əlverişlidir.1620-ci ildə Boston yaxınlığında sahilə çıxmış və məskunlaşmış Avropalıların bir neçə evdən ibarət yaşayış binaları indiyədək qorunub saxlanılmışdır.

Keyp-Koddan Keyp-Xatterasa qədər qumlu çimərliklər zolağı mövcuddur. Norfolk və Lonq-Aylend şəhərləri arasında Virciniya-Biç, Oşn-Siti, Uildud və Atlantik-Siti kimi kurort şəhərlər şəbəkəsi uzanır. Lonq-Aylenddən şimaldakı sahillər yelkənli qayıqsürmə idmanı üçün əlverişlidir. Arkada milli parkı ildə 4 milyon yaxın turist qəbul edir.

Floridada turizm XIX əsrin 70-ci illərindən qış istirahət zonası kimi inkişaf etməyə başlamışdır. Floridanın Atlantik okeanı shillərində Mayami-Biçdən Deyton-Biçə qədər çoxsaylı kurortlar yerləşir. Fort-Mayersdən Sankt-Peterburqa qədər olan ərazidə narın qumlu çimərliklər uzanır. Tempa, Pass-a-Qrill-Biç, Kliruoter, Breydenton, Sarasota, Venis, Sanibel, Neypls kimi tanınmış kurortlar bu ərazidə yerləşir. Floridanın cənubunda Everqleyds milli parkı salınmışdır.

Ştatın əsas görməli yerləri Orlando yaxınlığındakı Disneylend və Kanaveral burnunda yerləşən Kosmik tədqiqatlar mərkəzi hesab edilir.

Florida ştatında salınmış avtomobil yollar sistemi ştatlararası sürətli yollar şəbəkəsi ilə birləşir. Həmin ştata gələn avtoturistlər şimal hissədə dayanmağa, təyyarə ilə gələnlər isə Mayami ilə Palm-Biç arasındakı Qold-Kostda toplaşmağa üstünlük verirlər. Mayami dəniz limanı kruiz sərnişinlər üçün “qapı rolunu” oynayır. Hər il 1 milyona yaxın turist buradan yola düşür.

Kaliforniya ştatı ABŞ-ın beynəlxalq turizminin mühüm mərkəzlərindən biridir. Kaliforniyanın sahilləri çox müxtəlifdir. Burada həm qumlu sahillər, həm

də qayalıq ərazilər mövcuddur. Kaliforniyada ölkənin ən qədim milli parklarından biri Milli Yosemit parkı, Lassi Pik adlı vulkanı olan Milli park, Kinq-Konyon Milli parkı vardır. Sekvoyya milli parkında dünyanın ən qədim ağaclarından olan Sekvoyya qorunub saxlanılmışdır. Bir sıra ağacların hündürlüyü 100, gövdəsinin diametri 10 m-ə çatır. Ən qədim ağacların təxminən 2500 il yaşı var.

Ştatın əsas turizm mərkəzi Los-Anceles şəhəridir. Ölkənin kino sənayesinin mərkəzi-Hollivuda ekskursiyalar keçirilir. Dünyanın ən iri okeanariumlarından olan Merilend, uşaqlar və böyüklər üçün dünyada ən iri əyləncə mərkəzlərindən olan Disneylend, Möhtəşəm Kuin-Meri oken layneri Los-Ancelesdə yerləşir. Los-Ancelesdən cənubda San-Diyeqo və ştatın şimalında yerləşən San-Fransisko Kaliforniyanın mühüm turizm mərkəzləridir. Ştatın sahil kurortları arasında Santa-Krus, Monterey, Lonq-Biç, Nyu-port-Biç xüsusilə seçilir.

Nevada ştatında qumar oyunu biznesi ilə tanınan Las-Veqas və Arizona ştatındakı Qrand-Kanyon mühüm turizm mərkəzləridir.

ABŞ-ın Texas ştatında gözəl çimərliklər, Hyustonda Kosmik Tədqiqatlar Mərkəzi vardır. Vayominq, Kolorada, Montana, Yuta bə s. dağlıq ştatlar zəngin rekreasiya ehtiyatlarına malikdirlər.

3. Kanadanın coğrfi mövqeyi, iqlim şəraiti, dövlət quruluşu.

Kanada Şimali Amerikada yerləşir. Kanada qitənin şimal hissəsini və yaxınlıqdakı adaları (Kanada Arktika arxipelaqı, Nyufaundlend vankuver və s.) əhatə edir. Cənubda və şimal-qərbdə ABŞ ilə həmsərhəddir. Şərqdə Atlantik, qərbdə Sakit, şimal-şərqdə isə Şimal Buzlu okeanlarının suları ilə əhatə olunur. Ölkə ərazisini fiziki-coğrafi baxımdan 4 hissəyə ayırmaq olar:

1. Səthi düzənlik və yaylalardan ibarət olan Kanada qalxanı;
2. Kanada Kordilyerləri;
3. Böyük düzənliklər;
4. Appalaç dağları.

Kanadanın ən yüksək zirvəsinin Loqon dağının (5591 m) yerləşdiyi sahil dağ silsiləsi və Qayalı dağlar, ölkənin əsas dağ silsilələridir. Düzənliklər Müqəddəs Lavrenti çayına qədər, ölkənin bütün cənubu boyu uzanır.

Kanada həmçinin göllər diyarı kimi də tanınır. Ən böyük göllər sırasına Yuxarı, Ayı, Vinniped, Huron, Qul, Eri, Ontario aiddir. Müqəddəs Lavrenti, Saskaçevan, Yukon və Freyzer isə ölkənin əsas çaylarıdır.

Toronto, Monreal və Vankuver ölkənin ən böyük şəhərləri, Qalifaks, Kvebek, Sent-Cons, Vankuver dəniz, Tander-Bey və Toronto isə göl limanlarıdır.

Ölkə torpaqlarının böyük hissəsi donmuş torpaqlardan ibarətdir. Kanadanın qərb və şərq sahillərində əsasən mülayim və subarktik iqlim mövcuddur. Burada qış yumşaq, yay isə çoxda isti olmur. Ölkənin mərkəzində iqlim kəskin kontinental

və qurudur. Dağlıq rayonlarda iqlim sərt keçir. İyulun orta temperaturu cənub bölgələrindəki 21 dərəcədən Kanada Arktik arxipelağında 4 dərəcəyədək dəyişir. Yanvarın orta temperaturu şimalda mənfi 35, cənubda mənfi 4 dərəcədir.

Kanada federativ dövlətdir. İnzibati cəhətcə 10 federal əyalətdən və 2 ərazidən (Şimal-qərb və Labrador) ibarətdir.

1 iyul 1867-ci ildə Kanada müstəqillik qazanmışdır.1 iyul-Müstəqillik günü Milli bayramdır. Real icraedici hakimiyyər Baş nazir başda olmaqla hökumətə məxsusdur. Qanunvericilik hakimiyyəti ikipalatalı parlament tərəfindən həyata keçirilir. Parlament Senat və İcmalar palatalarından ibarətdir.

4. Kanadanın əsas turizm ehtiyatları.

Kanadada Elk-Aylend (Maral adası) ən böyük bizon sürüsü olan Vud-Buffalo, buzlaqları, gölləri, isti su mənbələri olan Casper, dağ kurortunun olduğu ölkənin qədim Banff milli parkı, məşhur Niaqara şəlaləsi yerləşir. Niaqara şəlaləsinin sulrı təqribən on yeddi mərtəbəli binanın hündürlüyü (51 m) qədər məsafədən aşağı tökülür. Alimlər sübut edir ki, Niaqara çayının və şəlaləsinin 9 min il yaşı vardır. Şəlalənin yaxınlığında ilk otel 200 il öncə tikilmişdir. Turistləri cəlb etmək məqsədilə şəlaləyə yaxın Niaqara-Fols şəhərində qədim avtomaşınlar, qiymətli əşyalar Niaqara şəlaləsi muzeyləri yaradılmışdır.

Albert əyalətində Red-Dir çayı vadisində dinozavrlar parkı yerləşir. YUNESCO-nun qərarı ilə bu park dünya irsi obyektlərinə aid edilmişdir. Ontarioda Şekspir, Ottavada çiçək və Kanada mədəniyyətləri, Niaqarad üzüm və şərab, Kvebekdə Şerbruk “Festival de Kanton”, Kempbeltonda baləq, Dofin şəhərində Ukrayna festivalı turistlərin böyük marağına səbəb olur.

Ottavada Milli qalereya, təbiət, elm və texnika, Milli mədəniyyət mərkəzləri, Nalaymoda-petroqliflər muzeyi, etnoqrafiya muzeyi, Sanderberd parkı, Fort-Rodd milli tarixi park, Portaj-la-Preridə-hinduların tarixi kəndi, Kanadanın mənimsənilməsi muzeyi fəaliyyət göstərir.

Torontoda Çin incəsənəti kolleksiyası olan Kral muzeyi, Bədii qalereya, Sİ-EN-EN teleşirkətinin 553 m hündürlüyü olan qülləsi vardır.

Kvebekdə-ursulinlər monastrı (1641), Notr-Dam-de-Kvebek kilsəsi (1650), Notr-Dam de Viktuar kilsəsi (1688), İç qala və parlament binası (XIX), Vankuverdə-dəniz muzeyi və dəniz akvariumu vardır.

Zəngin turist-ekskursiya potensialına malik Monreal biznesmenləri, alimləri, idmançıları və adi turistləri cəlb edir.

İstehlakçıların tələbatını ödəyə bilən geniş şəbəkəyə malik olan və dövlət tərəfindən maliyyə köməkliyi göstərilən turizm Kanada iqtisadiyyatının gəlirli sahələrindən biridir. Ontario və Kvebek kimi cənub əyalətlərinin turizm

mərkəzləri, həmçinin sakit okean sahilləri (Albert və Britaniya Kolumbiyası) daxili turistlərin toplaşdıqları əsas mərkəzlərdir.

Kanadalılar ABŞ üçün iri turizm bazarıdır. Hər il 17-18 milyon Kanadalı ABŞ-ın sərhədyanı, həmçinin Kaliforniya və Florida ştatlarına səfər edirlər. ABŞ-in Meksikanın və Karib dənizi hövzəsinin yay və qış kurortları, Kanadanın getmə turizmində böyük rol oynayır. Kanadalılar turist səfərlərini planlaşdırarkən, turist xidmətlərinin qiymətinə diqqət yetirirlər. Ona görə də cənubda yerləşmiş ABŞ və Karib regionunun turizm mərkəzləri kanadalılar üçün daha çox cəlbedicidir. Bu yerlərə turların qiyməti Avropa turlarından 40-50% ucuzdur.

Kanadalılar Avropaya əsasən Böyük Britaniyaya qohumları və dostları ilə görüşmək məqsədilə gəlirlər. Hər il ölkə hüdudlarından kənara 19 milyon Kanadalı səyahətdə iştirak edir.

Xarici turistləri ölkəyə cəlb etmək məqsədilə hökumət bir sıra qanunvericilik aktları qəbul etmişdir. Turistlər üçün bir sıra güzəştlər nəzərdə tutulur. Məsələn, mehmanxanalarda yaşamaqla əlaqədar alınan mallara və xidmətlərə qoyulan vergilər geri qaytarılır. Turistlər gömrük rüsumlarından azad edilir, şəxsi istifadə üçün gətirilən əşyalara, ov və idman məqsədilə gətirilən silahlara və s. rüsum tətbiq edilmir.

Bu tədbirlər xarici turizmin inkişafına öz təsirini göstərmişdir. Belə ki, 1990-cı ildə ölkəyə 14,8-15,4 milyon turist gəlmişdirsə, 1999-cu ildə bu say 19, 6 milyon, 2011-ci ildə 20-20, 5 milyon nəfər olmuşdur. Bu göstəricciyə görə Kanada yeri tutur. Cənubi-Şərqi Asiya (əsasən Yaponiya, Honkonq) Kanadanın gəlmə turizmində böyük rol oynayır.

Kanadanın turizm biznesində 600 mindən artıq insan çalışır. Ölkədə 4,5 mindən artıq turist agentliyi, 300 mindən artıq mehmanxna və digər yerləşmə vasitələrində yerlər mövcuddur. 40 mindən artıq restoran, kafe, bar və digər əyləncə yerləri fəaliyyət göstərir.

## 5. Meksikanın coğrafi mövqeyi,relyefi,iqlim şəraiti, turist marağı yaradan abidələri.

Meksika Şimali Amerikanın cənub qərbində yerləşir. Meksikaya Sakit okeanda və Kaliforniya körfəzindəki bir sıra adalar da məxsusdur. Ölkə ABŞ, Qvatemala və Belizlə həmsərhəddir. Qərbdə Sakit okeanın, Şərqdə Karib dənizi və Meksika kğrfəzinin suları ilə əhatə oluhur.

Şərqi və Qərbi Syerra-Madre dağları ilə əhatə olunan Meksika yaylası ölkə ərazisinin böyük hissəsini təşkil edir. Sitlaltepetl (5699m), Popokatepetl (5452m), Orisaba (5747m) vulkanları bu yayladadır. Ölkənin qərb bölgələri Kaliforniya yarımadasının cənub hissəsində yerləşir. Bu bölgə qərbi düzənliklərdən, şərqi dağ

silsilələrindən ibarətdir. Səth suları ilə zəif təmin olunmuş Meksikanın əsas çayı Rio-Bravo-del-Nortedir.

Qvadalaxara, Monterrey, Pueblo, Leon, Syudad-Xuares ölkənin iri şəhərləri, Mansanilyo, Syudad-Madero, Salina-Krus, Tuspan isə böyük portlarıdır.

Ölkə iqliminin müxtəlifliyi, onun mürəkkəb quruluşa malik olması ilə izah olunur. Meksikanın şimal hissəsinin iqlimi az yağıntılı və temperaturun kəskin dəyişkənliyi ilə seçilən (yanvarın orta temperaturu 13-15, iyulunku 28-31 dərəcədir, şaxtalar-10, istilər isə +40 dərəcəyədək ola bilər) kontinental subtropik iqlimdir. Qalan ərazi isə tropik iqlim qurşağındadır. Orta aylıq temperatur burada çox yüksəkdir. Məsələn,iyulda 27-28 dərəcə olur.

Ölkənin rəsmi adı-Meksika Birləşmiş Ştatlarıdır. Dövlət quruluşuna görə Federativ respublikadır. İnzibati cəhətcə ölkənin tərkibinə 31 ştat və paytaxtın yerləşdiyi bir federativ dairə daxildir. Ölkə 16 sentyabr 1810-cu ildə müstəqillik qazanmışdır. Müstəqillik elan olunduğu gün-Milli bayram kimi qeyd olunur. Dövlət və hökumətə rəhbərliyi prezident, qanunvericilik hakimiyyətini Senat (Yuxarı palata) və Deputatlar palatalarından (Aşağı palata) ibarət parlament həyata keçirir. İqtisadi baxımdan Meksika Latın Amerikasının nisbətən inkişaf etmiş ölkələrindən biridir. Meksika mayya və steklər kimi qədim Amerika xalqlarının yaratdıqları mədəniyyətin mövcudluğu ilə turistlərdə böyük maraq yaradır. Meksikanın mayya və asteklərin qorunub saxlanılan qədim şəhərlərindəki piramidalarına, məbədlərinə, daş tikililərinə, yaşayış evlərinə ekskursiyaların təşkili turistlərdə böyük maraq yaradır. Bu tikililər arasında Mexiko yaxınlığında (Hindu dilində Teotiukana-“Allahlarla insanların təmasda olduğu yer” mənasındadır), Mayor və Teopansolko məbədləri, məşhur Günəş daşı (diametri 3,6 m və çəkisi 24 ton olan dairəvi daş təqvim) turistlərdə xüsusilə böyük maraq oyadır.

### 6. Meksikanın turist marağı yaradan abidələrinin yerləşdiyi şəhərlər, turizmin iqtisadiyyatda yeri.

Meksikanın turist marağı yaradan çoxsaylı abidələrin yerləşdiyi şəhərlərdən biri Mexikodur. Mexiko-şəhərinin mərkəzi hissəsində asteklərin kral sarayının qalıqları, kilsə (XVI-XVII əsrlər), Müqəddəs Məryəm bazilikası, De la Professa, San-Aqustin, San-Losaro, San-Xuan-de-Dios kilsələri (XVII-XVIII əsrlər), Sikkə evi, De-los-Virreyes sarayı (1696-1703), üç mədəniyyət meydanı (astek, ispan müstəmləkə dövrü və müasir) xüsusi maraq doğurur. Çoxsaylı muzeylər arasında Milli antropologiya, Anauokalya, Kuikuilko, Virreynato, Milli tarix muzeyləri fərqlənir.

D. Riveranın, D. Sikeyrosun, X. Oroskonun mozaika və rəsmləri ilə bəzədilmiş universitet şəhərciyi (1949-1954), Olimpiya (1956), ”Asteka” stadionları (1968) və digər çoxsayli tikililər müasir memarlığın gözəl nümunələridir.

Meksikanın digər şəhərlərində də çoxsaylı qədim kilsələr, saraylar, monastrlar, ictimai binalar və s. qorunub saxlanmışdır. Puebloda oyma və bəzəkli evlər, San-Luis-Potokda-borokko üslubunda kilsələr (XVIII əsr), Qvadalaxarada San-Fransisko (XVI-XVII əsrlər) və Santa-Monika kilsələri (1720-1733), Qaxakada kilsəsi (XVI-XVIII əsrlər), La Soledad kilsəsi (1682-1690), Santa-Dominqo monastrı (1535-ci ildə əsası qoyulmuşdur), Meridada kilsə və Montexo evi (XVI əsr), Monterreyda Plaza-Saraqos Baş meydanı və müstəmləkə dövrü üslubunda kilsə (1600), Yepiskop sarayı (1782) turistlərin diqqətini cəlb edir.

Meksika xarici turizm sahəsində kifayət qədər təcrübəyə malik ölkələrdən biridir. Nadir və gözəl təbiəti (iki okeanın sahilləri), X. Kolumba qədərki abidələr, müstəmləkə dövrü memarlığı, çimərlik, ixtisaslaşdırılmış turlar təşkil etməyə imkan verir. Meksika həm kütləvi, həm də elitar turizmi inkişaf etdirmək istiqamətini götürmüşdür. Burada qolf, sualtı üzgüçülük və sualtı ov klublarının fəal tikintisi aparılır, tarixi, etnoqrafik, ekoloji maraqları əks etdirən xüsusi ixtisaslaşdırılmış marşrutlar hazırlanır. Meksikada mehmanxanaların və restoranların, aeroport və sürətli yolların, milli parkların və turizm mərkəzlərinin müasir şəbəkəsi yaradılmışdır. Mehmanxana yerlərinin sayına görə (365 min) ölkə dünyada səkkizinci, Latın Amerikasında ikinci yeri tutur. Son illərdə ölkədə doqquz iri turizm mərkəzi istifadəyə verilmişdir.

Meksika ABŞ və Kanadanın turist potensialını maksimum özünə cəlb edir. Şimali Amerikada Azad Ticarət haqqında müqavilə bunun üçün geniş perspektivlər açır. Meksikada qolf meydançaları olan istirahət mərkəzlərində qolf oynayanların 80%-i ABŞ və Kanadadan gələn turistlər təşkil edir.

Meksika turizmi Şimali Amerikanın daxili turizmindən xeyli dərəcədə aslıdır. ABŞ turistləri Meksikaya gələn xarici qonaqların 90%-ni təşkil edir. Turistlərin təxminən 4%-i Kanadanın, qalanları isə Avropalıların payına düşür.

Ölkəyə bir günlük gələn turistlər əsasən sərhədyanı şəhərlərdə toplaşırlar. Belə turistlər suvenirlərin istehsalı və satışı, oyun (qumar) biznesi üzrə ixtisaslaşanlardır. Kaliforniya ilə sərhədyanı qonşu olan Tixuana şəhəri buna əyani sübutdur.

Meksikaya uzun müddətə gələn turistlərin əsasını ya dəniz sahillərində istirahətə gələnlər, ya da ölkənin mədəni irsinə maraq göstərənlər təşkil edir.

Turizm Meksika iqtisadiyyatının əsasını təşkil edir. Belə ki, turizm ölkə büdcəsinə valyuta gətirən ikinci sahə hesab olunur. Kanadalılar və Avropalılar Meksikada amerikalılardan artıq pul xərcləyir və ölkədə daha çox qalmağa üstünlük verirlər.

Böyük turist ehtiyatlarına və turizm sahəsinin inkişafı üçün nəhəng potensiala malik olan Meksika son illərdə dünyanın aparıcı turizm ölkələri sırasına daxil olmuşdur.

Statistik məlumatlara müraciət etsək görərik ki, əgər 1992-ci ildə xarici ölkələrdən Meksikaya gələn turistlərin sayı 4,3 mln. nəfər olmuşdursa, bu göstəricilər 1996-cı ildə 21,4 mln, 2008-ci ildə 22,6 mln nəfər olmuşdur. Xarici turistlərin qəbulu üçün ölkədə 840 min mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur. Hər il orta hesabla 10,4 mln.-a yaxın meksikalı xarici səfərlərdə olur.